# TƏDQİQAT UNİVERSİTETLƏRİNİN İNKİŞAFINDA QAZAXISTAN MODELİ VƏ REGİONAL İNTEQRASİYA POTENSİALI



**Xalidə Hüseynzadə,**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*Elm, ali və peşə təhsili şöbəsinin aparıcı mütəxəssisi,*
*Azərbaycan Respublikası Təhsil İnstitutunun doktorantı*
*e-mail: khalida.rovshan@arti.edu.az*
*https://orcid.org/0009-0007-3244-2187*
*https://doi.org/10.30546/2706-7858.2025.3.1027*

**UOT:** 37; 378

**Xülasə.** *Müasir cəmiyyətdə tədqiqat universitetləri elm, təhsil və sənaye arasında körpü rolunu oynayaraq iqtisadi və sosial transformasiyaları sürətləndirir. Məqalədə Qazaxıstanda tədqiqat universitetlərinin təşkili və inkişaf strategiyaları, dövlət siyasətinin rolu, elmi-tədqiqatların təhsil ilə inteqrasiyası, innovasiya mühitinin formalaşdırılması və beynəlxalq əməkdaşlıq imkanları təhlil olunur. Təhlil əsasında Azərbaycanda tədqiqat universitetlərinin yaradılması zərurəti vurğulanır və elmi infrastrukturun qurulması, tədqiqatların təşviqi, dövlət-özəl əməkdaşlığının genişləndirilməsi və idarəetmənin beynəlxalq standartlara uyğunlaşdırılması tövsiyə edilir. Nəticə etibarilə tədqiqat universitetlərinin inkişafı ölkənin innovasiya potensialını və rəqabətqabiliyyətini artıracaq strateji prioritet kimi qiymətləndirilir.*

***Açar sözlər:*** *tədqiqat universiteti, ali təhsil, Qazaxıstan təcrübəsi, bilik iqtisadiyyatı, inteqrasiya.*
***Key words:*** *research university, higher education, Kazakhstan's experience, knowledge economy, integration.*
***Ключевые слова:*** *исследовательский университет, высшее образование, опыт Казахстана, экономика знаний, интеграция.*

Bilik iqtisadiyyatının sürətlə inkişaf etdiyi və innovasiyaların cəmiyyətin bütün sahələrinə təsir etdiyi müasir dövrdə ali təhsilin funksional rolu köklü şəkildə dəyişmişdir. Artıq ali təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də elmi-tədqiqatların aparılması, innovasiyaların yaradılması və tətbiqi sahəsində aparıcı institut kimi çıxış edir. Bu isə tədris prosesinin elmi fəaliyyətlə sıx əlaqələndirilməsini, innovativ metodların və texnologiyaların tətbiqini zəruri edir. Beləliklə, ali təhsil müəssisələri yeni iqtisadi şəraitdə müasir kadrların hazırlanması və davamlı inkişafın təmin olunması baxımından strateji əhəmiyyət kəsb edən mərkəzlərə çevrilmişdir. Bu kontekstdə "tədqiqat universitetləri" anlayışı qlobal akademik müzakirələrdə xüsusi önəm qazanır. Tədqiqat universitetləri elmi yaradıcılıq, yüksəksəviyyəli tədris və innovasiyayönümlü fəaliyyətin inteqrasiyasını təmin edən strateji institutlar kimi qəbul edilir. Onlar bilik yaratmaq və yaymaqla yanaşı, inno-

vativ həllər inkişaf etdirir, həmçinin cəmiyyətin elmi və iqtisadi inkişafında həlledici rol oynayırlar.

Son illər Azərbaycanda ali təhsilin keyfiyyətinin artırılması, elmin cəmiyyət və iqtisadiyyatla daha sıx inteqrasiyası, innovasiya mədəniyyətinin təşviqi istiqamətində mühüm islahatlar aparılır. Lakin bu sahədə daha səmərəli nəticələrin əldə olunması üçün qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi və kontekstə uyğun şəkildə tətbiqi zəruridir. Bu baxımdan Qazaxıstanın tədqiqat universitetləri sahəsində atdığı addımlar, xüsusilə də Nazarbayev Universitetinin yaradılması və fəaliyyət modeli Azərbaycan üçün maraqlı və öyrənilməli nümunə kimi çıxış edir. Qazaxıstan postsovet məkanında tədqiqat universiteti konsepsiyasını strateji şəkildə formalaşdıran və bu istiqamətdə institusional dəyişiklikləri həyata keçirən ilk ölkələrdən biridir. Qazaxıstanın təcrübəsi göstərir ki, tədqiqat universitetlərinin yaradılması sadəcə ali təhsil sistemində struktur dəyişikliyi deyil, bütövlükdə milli innovasiya sisteminin formalaşması və bilikəsaslı iqtisadiyyatın qurulması üçün vacib platformadır. Bu ölkədə ali təhsilin beynəlmiləlləşməsi, elmi-tədqiqat fəaliyyətinin kommersiyalaşdırılması, dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi istiqamətində həyata keçirilən addımlar Azərbaycan üçün praktik model funksiyası daşıya bilər. Araşdırmanın məqsədi Azərbaycanda tədqiqat universitetlərinin yaradılması zərurətini əsaslandırmaq, Qazaxıstanın bu sahədəki uğurlu təcrübəsini təhlil etmək və həmin təcrübənin milli kontekstdə inteqrasiya imkanlarını müəyyənləşdirməkdir. Həmçinin məqalədə iki ölkə arasında ali təhsil sistemlərinin oxşar və fərqli cəhətləri təhlil edilir, Azərbaycanda tədqiqat universitetlərinin inkişafı üçün normativ-hüquqi, institusional və sosial-iqtisadi çərçivələr kontekstində strateji təkliflər irəli sürülür. Bu yanaşma Azərbaycan ali təhsil sisteminin rəqabətqabiliyyətliliyinin artırılması və qlobal elmi mühitə inteqrasiyası baxımından əhəmiyyətli bir konseptual çərçivə yarada bilər.

## Tədqiqat universitetlərinin inkişafında strateji yanaşmalar

Tədqiqat universitetləri müasir ali təhsil və elmi-innovasiya sistemlərinin əsas sütunlarından olub, fundamental və tətbiqi tədqiqatlarla bilik iqtisadiyyatının inkişafına əhəmiyyətli töhfə verirlər. Qlobal rəqabətin güclənməsi və texnoloji innovasiyaların rolu bu universitetlərə strateji yanaşmaların formalaşdırılmasını tələb edir. Onlar intellektual kapitalın yaradılması, yüksəkixtisaslı kadrların hazırlanması və ölkələrin beynəlxalq elmi mühitdə rəqabətqabiliyyətinin artırılmasında mərkəzi rol oynayır. İnkişaf etməkdə olan ölkələr üçün tədqiqat universitetlərinin yaradılması milli innovasiya sisteminin gücləndirilməsi və iqtisadiyyatın modernləşdirilməsi baxımından prioritetdir. Bu sahədə strateji yanaşmaların tədqiqi universitetlərin effektivliyini yüksəldir və beynəlxalq standartlara uyğunlaşmağa şərait yaradır. Azərbaycanın və regionun ali təhsil keyfiyyətinin artırılması və elmi potensialının tanınması üçün bu yanaşmalar böyük önəm daşıyır.

Dünya səviyyəli universitetlərin formalaşdırılmasına yönəlmiş təşəbbüslər və layihələr ali təhsildə ən mühüm siyasət reaksiyalarından biri kimi diqqət çəkir. Bu təşəbbüslər "mükəmməllik təşəbbüsləri" (excellence initiatives) adlandırılır və məqsədi müəyyən ali təhsil müəssisələrini qlobal təhsil və elmi-tədqiqat bazarlarında uğurla rəqabət apara biləcək səviyyəyə çatdırmaqdır [1]. Tədqiqat universitetləri yalnız tədris funksiyasını yerinə yetirməklə kifayətlənməyib, fundamental və tətbiqi elmi araşdırmalarla intellektual kapitalın formalaşması və innovasiya potensialının artırılmasında həlledici rol oynayırlar. Mükəmməllik təşəbbüsləri çərçivəsində həyata keçirilən strategiyalar bu universitetlərin fəaliyyət keyfiyyətini yüksəldir və onların beynəlxalq elmi mühitdə rəqabət üstünlüklərini artırmağa istiqamətlənir.

Tədqiqat universitetləri çoxşaxəli funksiyalara malik mürəkkəb qurumlardır. Onlar ölkənin elmi və bilik sistemini qlobal elmi mühit və akademik tədqiqatlarla əlaqələndirən əsas mexanizm funksiyasını yerinə yetirirlər [2]. Eyni zamanda tədqiqat universitetləri beynəlxalq əməkdaşlıq, innovasiya və bilik transferi sahələrində öncül rol oynayaraq ölkənin elmi potensialının yüksəlməsinə və dayanıqlı inkişafına töhfə verirlər. Elmi şəbəkələrin mərkəzində yer alan tədqiqat universitetləri yalnız yeni ideyaları və bilikləri ölkənin ali təhsil sisteminə yönəltməklə kifayətlənmir, eyni zamanda akademik mühit üçün

beynəlxalq elm və elmi əməkdaşlıqda iştirak imkanları da yaradır [3]. Bu universitetlər beynəlxalq əməkdaşlıq vasitəsilə tədqiqatların keyfiyyətini artırmaqla yanaşı, tələbələrin və müəllimlərin qlobal elmi trendlərdən xəbərdar olmasını və təcrübə mübadiləsini mümkün edir, nəticədə ölkənin elmi potensialının yüksəldilməsinə şərait yaradırlar.

Dünyanın müxtəlif ölkələrində tədqiqat universitetlərinin yenidən qurulması və ya mövcud ali təhsil müəssisələrinin bu statusa yüksəldilməsi qlobal miqyasda müşahidə olunan bir tendensiyadır [4]. Bu proses ali təhsilin və elmi fəaliyyətin inteqrasiyasını gücləndirərək innovasiya potensialının artırılması, elmi nəticələrin kommersiyalaşdırılması və beynəlxalq rəqabətqabiliyyətinin yüksəldilməsi məqsədi daşıyır. Hökumətlər və təhsil strategiyaları bu istiqamətdə institusional islahatlar həyata keçirərək tədqiqat universitetlərinin elmi-tədqiqatlar, tədris və sosial-iqtisadi inkişaf arasında körpü funksiyasını daha da gücləndirməyə çalışırlar.

Ölkələr belə nəticəyə gəlirlər ki, bu cür institutlar XXI əsrin bilik iqtisadiyyatına inteqrasiya olunmaq üçün əsas açardır [5]. Bu institutlar elmi yeniliklərin yaradılması, yüksəkixtisaslı kadrların hazırlanması və innovativ texnologiyaların kommersiyalaşdırılmasında əsas rol oynayır. Onlar milli və qlobal iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilərək rəqabətqabiliyyətli və davamlı iqtisadi sistemlərin formalaşmasına təkan verir. Belə universitetlər beynəlxalq elmi əməkdaşlığı gücləndirir, innovasiya infrastrukturlarını inkişaf etdirir və sosial-iqtisadi transformasiyanı sürətləndirir.

İnkişaf etməkdə olan ölkələrin hökumətləri yüksək nəticələr göstərən tədqiqat universitetlərinin qlobal rəqabətqabiliyyətinin artırılması və iqtisadi inkişafın sürətləndirilməsi baxımından oynadığı mühüm rolu getdikcə daha çox dərk edirlər [6]. Tədqiqat universitetləri vasitəsilə innovasiya potensialının artırılması, yüksəkixtisaslı kadrların hazırlanması və elmi-texniki tərəqqinin təşviqi iqtisadiyyatların modernləşdirilməsi və dayanıqlı inkişafın təmin olunmasında əsas amil kimi qəbul edilir. Hökumətlər tədqiqat universitetlərinə strateji investisiyalar ayıraraq və onların beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirərək ölkələrinin qlobal elmi və innovasiya məkanında daha fəal iştirakını təmin etməyə çalışırlar. Dövlətlər bir tərəfdən aparıcı universitetlərə resursların yönəldilməsi, digər tərəfdən isə yüksəksəviyyəli ali təhsil müəssisələrinin inkişafını stimullaşdırmaqla ölkədəki elitar universitetlərin sayının beynəlxalq nüfuz qazandırdığını nəzərə alaraq xüsusi proqramlar həyata keçirtməyə başlamışlar [7].

Milli inkişaf prosesində tədqiqat universitetlərinin əhəmiyyəti nəzərə alınaraq onların inkişafına xüsusi önəm verilir. Bu universitetlər ölkənin sənaye və innovasiyayönümlü inkişaf məqsədlərinin həyata keçirilməsinə töhfə verərək ali təhsilin və elmi-tədqiqat mühitinin modernləşdirilməsini təşviq edir, həmçinin milli klasterlərin inkişafını dəstəkləyirlər [8]. Digər ölkələrdə olduğu kimi, Qazaxıstan da tədqiqat universitetlərinin formalaşdırılması sahəsində özünəməxsus inkişaf strategiyası seçmişdir.

Qazaxıstan Respublikasında 18 fevral 2011-ci il tarixində qəbul olunmuş “Elm haqqında” Qanunda tədqiqat universitetlərinə xüsusi müddəa daxil edilmişdir. Qanuna əsasən, tədqiqat universiteti Qazaxıstan Respublikası Hökumətinin təsdiqlədiyi inkişaf proqramını həyata keçirən, fundamental və tətbiqi elmi araşdırmalarla yanaşı, digər elmi-texniki tədqiqatlarda iştirak edən ali və ya aspirantura sonrası təhsil müəssisəsidir. Bu universitetlərin əsas məqsədi elmi fəaliyyəti ali təhsilin bütün səviyyələrində tədris prosesinə inteqrasiya etməkdir. Onlara təhsil proqramlarının hazırlanması və tətbiqi üzrə müstəqillik hüququ verilmiş, lakin təlim nəticələri dövlət standartlarının minimum göstəricilərindən aşağı ola bilməz. Həmçinin tədqiqat universitetləri ali təhsilin müxtəlif pillələrinə qəbul zamanı ixtisas istiqamətinə uyğun əlavə tələblər müəyyən etmək hüququna malikdirlər [9].

2015-ci ildə Qazaxıstanda qəbul edilmiş “Ali təhsil müəssisələrinin təsnifat meyarlarının təsdiq edilməsi haqqında” sənəddə tədqiqat universitetləri üçün xüsusi status və beşillik inkişaf proqramı nəzərdə tutulub. Bu universitetlər üçdən çox ixtisas qrupu üzrə müstəqil ali və ali təhsildən sonrakı proqramları həyata keçirməli, elmi dərəcəli müəllimlərin ümumi heyətdə payı ən az 70% (tam ştatda 15%) olmalı, magistrant və doktorantlar kontingentin minimum 15%-ni təşkil etməlidir. Beynəlxalq tərəfdaşlarla proq-

ramların ən azı 20%-i birgə hazırlanmalı, elmi heyətin 12%-i əcnəbilərdən ibarət olmalı, xarici əməkdaşlı indekslənmiş məqalələrin payı 10%-dən az olmamalıdır. Son üç ildə məqalə göstəricisi müəllim başına 1:3, sitat göstəricisi isə ən azı 2 olmalı, hər ixtisasda elmlər doktoru və ya iki fəlsəfə doktoru mövcud olmalıdır. Akademik heyət üzvü başına illik xarici və özəl maliyyə daxilolmaları minimum 500 min tengə təşkil etməlidir. Bu tələblər universitetlərin yüksək elmi və akademik səviyyəsini təmin etməyə yönəlib [10].

Qazaxıstanda ilk tədqiqat universiteti nümunəsi "Nazarbayev Universiteti"dir. Prezidentin təşəbbüsü ilə yaradılan bu ali məktəb beynəlxalq səviyyəli bir müəssisə olaraq təhsil, elm və istehsalın inteqrasiyasını təmin etmək, səmərəli akademik mühit formalaşdırmaq və ölkənin elmi qurumlarının qlobal elmi məkana inteqrasiyasına şərait yaratmaq məqsədi daşıyır [11]. Universitetin fəaliyyətində dünyanın qabaqcıl universitetləri və tədqiqat mərkəzləri ilə əməkdaşlıq mühüm rol oynayır. Ölkədə mövcud olan dörd tədqiqat universitetindən biri kimi, bu universitetin iş prinsiplərinin təhlili Qazaxıstanın əlaqədar sahədə həyata keçirdiyi siyasətin daha aydın anlaşılması baxımından faydalı hesab edilir. Təhlillər göstərir ki, universitetin planlı inkişafında qəbul edilmiş beşillik inkişaf proqramları mühüm rol oynayır. Onlardan biri 2016-2020-ci illəri əhatə edən tədqiqat universitetinin inkişaf proqramıdır [12].

2013-2020-ci illər üçün Ali Qəyyumlar Şurası tərəfindən təsdiqlənmiş proqram çərçivəsində Nazarbayev Universiteti ABŞ təcrübəsinə əsaslanan konseptual baza əsasında tədqiqat universitetlərinin mahiyyətini, vizyonunu və əsas vəzifələrini müəyyən etmişdir. Proqramda universitetin hüquqi bazası, idarəetmə sistemi, istedadlı tələbə və elmi işçilərin, xüsusilə xarici mütəxəssislərin cəlb olunması, beynəlxalq əməkdaşlıq və digər əlaqəli məsələlər geniş şəkildə əhatə olunmuşdur. ABŞ tədqiqat universitetlərinin təsnifatına əsaslanaraq müasir tədqiqat universitetləri fundamental və tətbiqi elmi-tədqiqatların aparılması, yüksəksəviyyəli akademik heyətin formalaşdırılması və tədris prosesinə elmi fəaliyyətin inteqrasiyası ilə fərqlənir. Onlar innovasiya və bilik transferi mexanizmlərinin inkişafı, qlobal əməkdaşlıq şəbəkələrinin yaradılması və tədqiqatyönümlü təhsilin təmin olunması kimi xüsusiyyətlərə malikdirlər. Həmçinin yüksəksəviyyəli elmi nəşrlərin və qrantların əldə olunması, çoxsahəli təhsil proqramlarının təqdim edilməsi və elmi-pedaqoji heyətin beynəlxalq standartlara cavab verməsi ilə seçilirlər:

- *təhsil proqramlarında iştirak edən və elmi-tədqiqatlar aparan professor-müəllim heyətinin mövcudluğu (onların iş vaxtının orta hesabla 25-75%-i pedaqoji fəaliyyətə yönəldilir);*
- *aparılan tədqiqatların yüksək akademik səviyyədə olması;*
- *elmi-tədqiqat bazasının inkişafı üçün investisiyaların ayrılması, o cümlədən kitabxana resursları, informasiya təminatı və laboratoriya avadanlıqları kimi infrastrukturun təmin olunması;*
- *həm bakalavriat, həm də bakalavriatdan sonrakı ali təhsil səviyyələri üzrə proqramların mövcudluğu.*

Proqram sənədində tədqiqat universitetlərinin əsas vəzifəsi kimi, ali təhsilin bütün səviyyələrində tədqiqat fəaliyyəti ilə tədris prosesinin inteqrasiyasının təmin edilməsi xüsusi vurğulanmışdır. 2016-2020-ci illəri əhatə edən tədqiqat universitetinin inkişaf proqramında həyata keçiriləcək vəzifələr, fəaliyyətlər və məqsədlər beşillik dövrə uyğun mərhələlərə bölünmüşdür. Proqramın əsas məqsədi təhsil, tədqiqat infrastrukturu və elmi-innovasiya dəstək sistemlərinin inkişafı vasitəsilə universiteti beynəlxalq səviyyəli tədqiqat universitetinə çevirməkdir [12].




***Qrafik 1. Nazarbayev Universitetinin 2016-2020-ci illər üzrə İnkişaf Proqramı istiqamətləri***
***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Nazarbayev Universitetində 2016-2020-ci illəri əhatə edən beşillik Fəaliyyət Planı uğurla həyata keçirilmişdir. Belə ki, universitet əməkdaşlarının müəllifliyi ilə beynəlxalq indeksli jurnallarda dərc olunan məqalələrin sayı artmış və nəşrlərin orta sitat indeksi yüksəlmişdir. Bu uğurların davamlılığını təmin etmək məqsədi ilə 2021-2025-ci illəri əhatə edən yeni İnkişaf Proqramına keçilmişdir [13]. Yeni proqram birinci İnkişaf Planının nəticələri nəzərə alınaraq hazırlanmışdır. Proqramın əsas məqsədi perspektivli tədqiqat sahələrində, xüsusilə Qazaxıstan Respublikasının innovativ inkişafına əhəmiyyətli nəzəri və praktiki töhfə verəcək yüksəksəriştəli qabaqcıl tədqiqat mərkəzlərinin ən böyük kompleksini yaratmaqdır. Bu məqsəd çərçivəsində proqramda aşağıdakı əsas öhdəliklər müəyyən edilmişdir:

*1. Qazaxıstan iqtisadiyyatının rəqabətədavamlı elmi kadrlarla təmin olunması, elmi-tədqiqatların aparılması və tədris prosesinin inteqrasiyası;*

*2. Nazarbayev Universitetinin məktəbləri ilə Qazaxıstan universitetlərinin professor-müəllim heyəti arasında əməkdaşlıq və tədqiqat şəbəkələrinin yaradılması üzrə yeni təşəbbüslərin gücləndirilməsi və formalaşdırılması, genişspektrli fənlərdə qabaqcıl tədqiqatların aparılması;*

*3. Nazarbayev Universitetinin elmi fəaliyyətinin səmərəliliyini yüksəltmək məqsədi ilə qabaqcıl təhlil vasitələrindən istifadə etməklə tədqiqat qrantlarının idarə olunması proseslərinin modernləşdirilməsi, sadələşdirilməsi və təkmilləşdirilməsi.*

İnkişaf Proqramının uğurla həyata keçirilməsini təmin etmək məqsədi ilə universitetlərin fəaliyyətinin ölçülməsi və qiymətləndirilməsi üçün obyektiv göstəricilər müəyyən edilmişdir. Bu göstəricilər tədqiqat universitetlərinin strateji hədəflərə nail olma səviyyəsini aşkar etmək və inkişaf istiqamətlərini dəqiq təyin etmək üçün əsas rol oynayır. İnkişaf Proqramı sənədində obyektiv göstəricilər (indikatorlar) aşağıdakı şəkildə müəyyən edilmişdir:

*– elmi-tədqiqat fəaliyyətində iştirak edən müəllim-professor heyətinin xüsusi çəkisi ən azı 95% səviyyəsində artırılmalıdır;*

*– son beş il ərzində Science Citation Index Expanded və Social Sciences Citation Index bazalarında indekslənmiş məqalələrin sayı ən azı 3.100 olmalıdır;*

*– Web of Science və Scopus elmmetrik bazalarında yer alan beynəlxalq resenziyalı jurnallarda son beş il ərzində dərc edilmiş elmi məqalələrin orta istinad (sitat) səviyyəsi ən azı 5,0 olmalıdır;*

*– Nazarbayev Universitetinin tədqiqat proqramları çərçivəsində müsabiqələr əsasında verilən tədqiqat qrantlarının sayı ildə ən azı 30 olmalıdır.*

Proqram pasportunda maliyyə məsələləri əsas prioritetlərdən biri kimi vurğulanmışdır. 2021-2025-ci illər üçün İnkişaf Proqramının icrasına ümumilikdə 33,246 milyon tenge ayrılması nəzərdə tutulur ki, bunun 12,536 milyon tengesi respublika büdcəsi və milli fondun payına, 20,710 milyon tenge isə Nazarbayev Universitetinin öz vəsaitinə düşür. 2021-ci ildən başlayaraq, illik xərclərin yüksəldilməsi yeni tədqiqat imkanlarının yaradılması, infrastrukturun yenilənməsi və kadr potensialının gücləndirilməsi kimi əsas fəaliyyət sahələrinin fasiləsiz inkişafına şərait yaradır. İllər üzrə maliyyə bölgüsünün tədricən artımı proqramın mərhələli və davamlı inkişafını təmin etmək məqsədi daşıyır. Bu maliyyə planlaması eyni zamanda layihə idarəetməsində şəffaflıq və səmərəliliyin təmin olunmasına, resursların məqsədyönlü istifadəsinə imkan verir. Qəbul edilmiş İnkişaf Proqramında maliyyə mənbələrinin səmərəli diversifikasiyasının universitetin bilik transferindən əldə etdiyi gəlirlərin artırılması üçün zəruri olduğu xüsusi vurğulanmışdır. Bu çərçivədə Nazarbayev Universitetinin artıq departamentlərin maliyyələşdirilməsi əvəzinə, perspektivli layihələrin dəstəklənməsinə üstünlük verməsi məqsədəuyğun hesab edilmişdir. Eyni zamanda marketinq, biznes inkubasiyası və elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması kimi fəaliyyət sahələrinin inkişaf etdirilməsi planlaşdırılmışdır. Bundan əlavə, universitet bütün bakalavr tələbələri üçün biznes və innovasiya kurslarının keçirilməsinin tələbələrin sahibkarlığa marağını artırmaq və gələcəkdə öz startaplarını yaratmaq təşəbbüslərini təşviq etmək baxımından faydalı olacağı qənaətinə gəlmişdir.

Son dövrlərdə Nazarbayev Universitetinin tədqiqat universiteti kimi əldə etdiyi uğurlar onun regional və beynəlxalq akademik müstəvidə nüfuzunun artmasının əhəmiyyətli göstəricisidir. Bu nailiyyətlər universitetin tədqiqat potensialının və elmi fəaliyyətlərinin beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdiyini təsdiqləyir. Belə ki, Nazarbayev Universitetinin Asiyanın on beş aparıcı universitetini birləşdirən Asiya Universitetlər Alyansının ilk üzvlərindən biri olması, onun strateji əhəmiyyətinin və tədqiqat sahəsində regional liderliyinin rəsmiləşdirilməsidir. Bu alyans vasitəsilə universitet həm əməkdaşlıq imkanlarını genişləndirmiş, həm də bilik və resurs mübadiləsi ilə tədqiqat və tədris keyfiyyətini yüksəltmək üçün yeni platformalara çıxış əldə etmişdir.

Nazarbayev Universitetinin tədqiqat universiteti kimi inkişafında mühüm rol oynayan bir sıra fəaliyyətləri qeyd etmək mümkündür. Məsələn, universitetdə postdoktorantura (doktorantura səviyyəsindən sonrakı dövr) tələbələri üçün yerlərin sayında davamlı artım müşahidə olunur. Bundan əlavə, universitet yüksək təqaüdlər təklif etməklə çoxlu istedadlı gəncləri cəlb edir. Nazarbayev Universiteti tədqiqat layihələrinə də böyük önəm verir. Birinci İnkişaf Proqramı çərçivəsində 192 tədqiqat layihəsi müəyyənləşdirilmiş, çoxsaylı tədqiqat nəticələri aparıcı elmi jurnallarda dərc olunmuşdur. Magistr və doktorantlar isə bu layihələrə cəlb edilərək beynəlxalq tədqiqat təcrübəsinin standartlarına uyğun təhsil almışlar. İdarəetmə sistemi baxımından Nazarbayev Universiteti yalnız Qazaxıstan universitetləri arasında deyil, həmçinin bütün postsovet məkanında fərqlənir. Universitetin muxtariyyət hüququna malik olması inkişaf prosesində xüsusi əhəmiyyət kəsb etmişdir. Bu xüsusiyyət Nazarbayev Universitetinə qlobal idarəetmə standartlarını tətbiq etməyə, açıq tələbə seçimi və işə qəbul siyasətini həyata keçirtməyə imkan vermişdir.

Növbəti illər üçün nəzərdə tutulan təşəbbüslər çərçivəsində Nazarbayev Universiteti bir sıra strateji hədəfləri və fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. Bu təşəbbüslər universitetin tədqiqat və innovasiya potensialının gücləndirilməsinə, beynəlxalq rəqabətədavamlı bir ali təhsil müəssisəsi kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. İlk olaraq, universitet tərəfindən yeni tədqiqat strategiyasının hazırlanması planlaşdırılır. Bu strategiya fənlərarası tədqiqatlara artan ehtiyacı nəzərə almaqla yanaşı, tədqiqat resurslarının universitetin imkanları ilə məhdudlaşan bir sıra prioritet sahələrə yönəldilməsinin vacibliyini ön plana çıxarır. Məqsəd tədqiqat resurslarının daha səmərəli və məqsədyönlü istifadəsini təmin etməkdir. Bununla yanaşı, texnologiyanın sürətli inkişafı fonunda universitetdə İntellektual Sistemlər və Süni İntellekt İnstitutunun yaradılması nəzərdə tutulur. Bu institutun yaradılması həm elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsinə, həm də müasir texnoloji çağırışlara cavab verə biləcək ixtisaslı kadrların hazırlanmasına xidmət edəcək. Universitetin növbəti onillik inkişaf mərhələsində beynəlmiləlləşdirmə əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu məqsədlə artıq beynəlmiləlləşdirmə üzrə alt komitə yaradılmış və digər nüfuzlu universitetlərdə bu sahədə mövcud olan qabaqcıl təcrübələrin öyrənilməsi istiqamətində proqramlara başlanılmışdır. Bu təşəbbüs universitetin beynəlxalq aləmdə akademik və elmi əməkdaşlıqlarının genişləndirilməsinə töhfə verməyi hədəfləyir. Eyni zamanda Nazarbayev Universitetinin Himayəçilər Şurasının qərarına əsasən, 2025-ci ilədək universitetdə təhsil alan tələbələrin sayının iki dəfə artırılması planlaşdırılır. Bu həm tədris infrastrukturlarının genişləndirilməsini, həm də qəbul və keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir. Bunlarla yanaşı, universitetin mövcud və gələcək innovasiya təşəbbüslərinin dəstəklənməsi məqsədi ilə innovasiya ekosisteminin davamlı inkişafı da qarşıya qoyulmuş əsas hədəflərdən biridir. Bu çərçivədə universitet elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması, startap mühitinin təşviqi və tətbiqyönümlü tədqiqatların maliyyə dəstəyi ilə təmin olunması sahələrində fəaliyyətlərini daha da genişləndirməyi planlaşdırır.

Nazarbayev Universitetinin 2021-2025-ci illəri əhatə edən ikinci tədqiqat İnkişaf Proqramı çərçivəsində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün konkret hədəf və nəticə göstəriciləri

müəyyən edilmişdir. Bu göstəricilər universitetin elmi potensialının gücləndirilməsi, beynəlxalq elmi nüfuzunun artırılması, tədqiqat fəaliyyətinin keyfiyyət və effektivliyinin yüksəldilməsi, eləcə də elmi nəticələrin kommersiyalaşdırılması istiqamətində planlaşdırılan tədbirlərin ölçülə bilən nəticələrini əks etdirir. Proqramın konseptual yanaşması təhsil, elmi-tədqiqat infrastrukturu, innovasiya dəstək mexanizmləri və idarəetmə potensialının inkişafı kimi bir-birini tamamlayan istiqamətlərə əsaslanır. Burada ali təhsilin bütün səviyyələrində (bakalavriat, magistratura və doktorantura) tədris prosesinin elmi fəaliyyətlə inteqrasiyası prioritet təşkil edir. Eyni zamanda beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsi, yüksək impakt faktorlu elmi nəşrlərin sayının artırılması, elmi nəticələrin kommersiyalaşdırılması və startap təşəbbüslərinin dəstəklənməsi proqramın mərkəzi hədəfləri sırasındadır.

Müasir ali təhsil müəssisələrinin inkişaf strategiyalarında elmi potensialın gücləndirilməsi, beynəlxalq tanınmanın genişləndirilməsi və innovativ idarəetmə mexanizmlərinin tətbiqi strateji əhəmiyyət daşıyır. Təqdim olunan proqram çərçivəsində müəyyən edilmiş əsas nəticə göstəriciləri universitetin elmi və akademik inkişafına kompleks və sistemli yanaşmanı təmin edir. İlk olaraq, elmi potensial və kadr resurslarının inkişafı istiqamətində professor-müəllim heyətinin elmi fəaliyyətə cəlb olunma səviyyəsinin 2021-ci ildəki 75%-dən 2025-ci ildə 95%-ə çatdırılması hədəflənir. Bu yanaşma elmi məhsuldarlığın artımı ilə yanaşı, elmi kadrların peşəkarlıq səviyyəsi və tədqiqat keyfiyyətinin yüksəldilməsinə, universitetin intellektual kapitalının güclənməsinə xidmət edir. Elmi məhsuldarlıq və beynəlxalq tanınmanın artırılması məqsədi ilə Science Citation Index Expanded və Social Sciences Citation Index bazalarında indekslənmiş məqalələrin sayının 2700-dən 3100-ə yüksəldilməsi, beynəlxalq resenziyalı jurnallarda orta sitat göstəricisinin 3,0-dan 5,0-a çatdırılması nəzərdə tutulur. Elmi fəaliyyətin keyfiyyət və kəmiyyət göstəricilərinin sinxronlaşdırılması nəticəsində universitetin qlobal elmi mühitdə rəqabətqabiliyyətinin artırılması təmin edilir. Bundan başqa, qrant və maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi çərçivəsində illik minimum 30 elmi qrantın qorunması, tədqiqat qrantlarına müraciətlərin sayının ən azı 60 olması və hər müraciətin ən azı üç beynəlxalq ekspert tərəfindən qiymətləndirilməsi planlaşdırılır ki, bu da elmi fəaliyyətin şəffaf, rəqabətədavamlı və beynəlxalq standartlara uyğun maliyyələşməsini təmin edir. Digər tərəfdən tələbə kontingenti və beynəlmiləlləşmə sahəsində magistratura və doktorantura səviyyəsində tələbələrin payının 24%-dən aşağı olmaması, əcnəbi tələbələrin payının isə 2021-ci ildəki 1%-dən 2025-ci ildə 5%-ədək yüksəlməsi hədəflənir. O cümlədən beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədi ilə xarici müəlliflərlə həmmüəlliflikdə hazırlanmış və beynəlxalq elmi bazalarda indekslənmiş məqalələrin ümumi nəşrlərdə payının 70% səviyyəsində saxlanılması planlaşdırılır ki, bu yanaşma da elmi fəaliyyətin beynəlxalq əməkdaşlıq çərçivəsində dayanıqlı və davamlı şəkildə inkişaf etməsinə zəmin yaradır. Tədqiqat idarəçiliyinin gücləndirilməsi üçün isə ildə beş təlim keçirilməsi nəzərdə tutulur. Bu tədbirlər idarəçilik və layihə menecmenti bacarıqlarının inkişafı ilə elmi fəaliyyətin səmərəliliyini artırmağa xidmət edir. Ümumilikdə, proqramın icrası universitetin elmi potensialının davamlı inkişafına, beynəlxalq elmi məkanda mövqelərinin möhkəmləndirilməsinə və milli innovasiya ekosisteminin formalaşmasına mühüm töhfələr verəcəkdir.

## Tədqiqat universitetlərinin inkişafında regional inteqrasiya perspektivləri

Qazaxıstanın tədqiqat universitetləri sahəsində həyata keçirdiyi institusional islahatlar və strateji yanaşmalar, xüsusilə də Nazarbayev Universitetinin yaradılması nümunəsi Azərbaycanda tədqiqat universitetlərinin formalaşdırılması prosesində nəzərə alınmalı mühüm və dəyərli bir model kimi qiymətləndirilə bilər. Bu təcrübə yalnız ali təhsilin modernləşdirilməsi istiqamətində deyil, eyni zamanda elm və innovasiya sahələrinin inteqrasiyası baxımından da sistemli yanaşmanın praktik nümayişidir. Qazaxıstanın dövlət siyasətində ali təhsil, elmi-tədqiqat və innovasiya sahələrinin vahid strategiya əsasında idarə olunması ölkənin elmi potensialının yüksəldilməsi və beynəlxalq rəqabətqabiliyyətinin artırılması məqsədinə xidmət

etmişdir. Azərbaycanda isə bu təcrübənin uğurla tətbiqi üçün bir neçə əsas istiqamət üzrə dərindən və mərhələli şəkildə fəaliyyət göstərmək zəruridir. İlk növbədə, müstəqil idarəetmə modeli və akademik muxtariyyətin təmin olunması məsələsi mühüm yer tutur. Nazarbayev Universitetində tətbiq edilən idarəetmə strukturu qərar qəbuletmə proseslərinin çevik və şəffaf mexanizmlər üzərində qurulması ilə seçilir. Bu, universitetə yalnız dövlət büdcəsindən asılı olmayan maliyyə mənbələrinin, o cümlədən xarici tərəfdaşlarla əməkdaşlıq və qrantəsaslı resursların cəlb edilməsinə imkan yaratmışdır. Belə bir idarəetmə modeli akademik azadlığın və innovativ yanaşmaların inkişafına zəmin yaradır, eyni zamanda ali təhsil müəssisələrinin strateji hədəflərinə səmərəli çatmasını təmin edir. Azərbaycanda da pilot layihələr şəklində müəyyən ali təhsil müəssisələrinə geniş akademik və inzibati muxtariyyət verilməsi və idarəetmədə beynəlxalq korporativ idarəetmə standartlarının tətbiq olunması tədqiqat universitetlərinin inkişafı üçün vacib başlanğıc ola bilər.

İkinci mühüm istiqamət kimi elmi-tədqiqat fəaliyyətlərinin kommersiyalaşdırılması və sənaye ilə inteqrasiya mexanizmlərinin inkişaf etdirilməsi qeyd edilməlidir. Qazaxıstan təcrübəsində tədqiqatyönümlü universitetlərin fəaliyyətində innovasiya parkları, texnologiya transfer ofisləri və startap inkubatorlarının rolu xüsusilə vurğulanır. Bu qurumlar elmi nəticələrin tətbiqini və ticariləşdirilməsini təmin etməklə, həmçinin gənc alim və tələbələrdə sahibkarlıq bacarıqlarının formalaşmasına təkan verməklə elmi-tədqiqat potensialını effektiv kommersiya istiqamətinə yönəldirlər. Azərbaycanda isə bu sahədə müəyyən potensial mövcud olmaqla yanaşı, strukturlaşdırılmış və davamlı fəaliyyət göstərən platformaların yaradılması və genişləndirilməsi zəruridir. Eyni zamanda əmək bazarının real ehtiyaclarına uyğun tədqiqat prioritetlərinin müəyyənləşdirilməsi və dövlət-sənaye-universitet əməkdaşlığının stimullaşdırılması istiqamətində kompleks tədbirlərin görülməsi tədqiqat universitetlərinin iqtisadi və sosial təsirinin artmasına xidmət edəcəkdir.

Üçüncü aspekt kimi beynəlxalq əməkdaşlığın genişləndirilməsi və kadr potensialının gücləndirilməsi xüsusi önəm daşıyır. Qazaxıstanın strateji xarici tərəfdaşlarla birgə proqramlar həyata keçirməsi, o cümlədən ikili diplom proqramları və ortaq tədqiqat mərkəzlərinin yaradılması vasitəsilə qlobal standartlara uyğunlaşma və beynəlmiləlləşmə prosesinə qoşulma təcrübəsi Azərbaycan üçün əvəzsiz örnəkdir. Bu model, həmçinin yerli alimlərin və tələbələrin beynəlxalq səviyyədə peşəkar inkişafını təmin edir, onların dünya elmi ictimaiyyətində tanınmasına və əməkdaşlıq imkanlarının genişlənməsinə şərait yaradır. Azərbaycanda da seçilmiş universitetlərlə strateji tərəfdaşlıq formatının formalaşdırılması və genişləndirilməsi yüksəkixtisaslı kadrların hazırlanması və tədqiqat fəaliyyətlərinin beynəlmiləlləşdirilməsi baxımından vacib addımdır.

Qazaxıstanın uğurlu təcrübəsi göstərir ki, tədqiqat universitetləri yalnız ali təhsilin inkişafında deyil, həm də ölkənin innovasiya strategiyasının əsas dayağı kimi çıxış edir. Belə universitetlər elmi biliklərin istehsal edilməsi və tətbiqi vasitəsilə bilik iqtisadiyyatının formalaşmasına töhfə verir, yeni texnologiyalar və innovativ məhsullar vasitəsilə iqtisadi inkişafı sürətləndirir. Azərbaycanda da tədqiqat universitetlərinin inkişaf etdirilməsi bu baxımdan strateji əhəmiyyət kəsb edir. Lakin bu proses mərhələli yanaşma, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, eləcə də dayanıqlı və şəffaf maliyyələşmə mexanizmlərinin qurulmasını tələb edir. Bununla yanaşı, tədqiqat universitetlərinin formalaşması və inkişafı üçün müasir elmi infrastrukturların yaradılması, akademik personalın stimullaşdırılması və onların beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılmalıdır.

Yekun olaraq qeyd edə bilərik ki, Qazaxıstanın tədqiqat universitetləri sahəsində əldə etdiyi təcrübə Azərbaycan üçün həm institusional islahatlar, həm də strateji inkişaf baxımından önəmli töhfələr verə bilər. Bu modelin milli kontekstə uyğunlaşdırılması ölkədə elm və təhsilin inkişafı, innovasiya potensialının artırılması və nəticə etibarilə dayanıqlı iqtisadi tərəqqinin təmin edilməsi istiqamətində əhəmiyyətli addım hesab olunur. Azərbaycanda tədqiqat universitetlərinin formalaşması və inkişafı üçün Qaza-

xıstan nümunəsinin dərindən təhlili və onun müvafiq aspektlərinin adaptasiyası ölkənin ali təhsil sistemində və elmi-tədqiqat sahəsində keyfiyyətli transformasiyanın əsasını təşkil edə bilər.

**Nəticə.** Qloballaşma və bilik əsrinin çağırışları fonunda tədqiqat universitetlərinin rolu ölkələrin intellektual və iqtisadi potensialının formalaşmasında strateji əhəmiyyət kəsb edir. Azərbaycan da milli inkişaf strategiyalarına uyğun olaraq bu modeli tətbiq etməli, xüsusilə Qazaxıstanın, o cümlədən Nazarbayev Universitetinin uğurlu təcrübəsindən yararlanmalıdır. Qazaxıstanın nailiyyətləri dövlət dəstəyi, çevik normativ bazası, akademik muxtariyyət, beynəlxalq əməkdaşlıq və sənaye inteqrasiyasının gücləndirilməsi kimi əsas amillərlə bağlıdır. Bu elementlərin Azərbaycanın təhsil sisteminə mərhələli inteqrasiyası tədqiqat universitetlərinin formalaşması və davamlı inkişafı üçün zəruridir. Azərbaycanda tədqiqat universitetləri yalnız ali təhsilin yeni forması deyil, həm də elmi potensialın səfərbər olunması, innovasiya və insan kapitalının inkişafı üçün strateji platformadır. Elm-təhsil-biznes üçbucağının səmərəli işləməsi bilik istehsalı və transferinə imkan verir. Nəticədə Qazaxıstan təcrübəsi Azərbaycanın ali təhsil islahatlarını dərinləşdirməsi və bilikəsaslı iqtisadiyyata keçidi üçün praktik istiqamətlər təqdim edir. İlk mərhələdə pilot tədqiqat universitetlərinin yaradılması, onların institusional və maliyyə təminatının gücləndirilməsi, beynəlxalq əməkdaşlıq və kadr hazırlığının təşkili tövsiyə olunur ki, bu da həm təhsil sisteminin modernləşdirilməsinə, həm də ölkənin rəqabətqabiliyyətli elmi-iqtisadi inkişafına töhfə verə bilər.

## İstifadə edilmiş ədəbiyyat


1. Agasisti T., Shibanova E., Platonova D., Lisyutkin M. The Russian Excellence Initiative for higher education: A nonparametric evaluation of short-term results. International Transactions in Operational Research, 2020, 27(4), pp.1911-1929.

2. Altbach P.G. The past, present, and future of the research university. Economic and Political weekly, 2011, 46(16), pp.65-73.

3. Altbach P.G. Advancing the national and global knowledge economy: The role of research universities in developing countries. Studies in higher education, 2013, 38(3), pp.316-330.

4. Mohrman K., Ma W., Baker D. The research university in transition: The emerging global model. Higher education policy, 2008, 21(1), pp.5-27.

5. Altbach P.G. Peripheries and centres: Research universities in developing countries. Higher education management and policy, 2007, 19(2), pp.111.

6. Salmi J. The challenge of establishing world-class universities. World Bank Publications, 2009.

7. Agasisti T., Yang G.L., Song Y.Y., Tran C-T.T.D. Evaluating the higher education productivity of Chinese and European “elite” universities using a meta-frontier approach. Scientometrics, 2021, 126(7), pp.5819-5853.

8. Абылгазина А.Е., Мамырханова А.М. Научно-исследовательские университеты Казахстана: формирование и развитие инновационной среды. Современные проблемы науки и образования, 2015, (6), с.509-509.

9. Qazaxıstan Respublikasının “Elm haqqında” Qanunu (2011).
https://adilet.zan.kz/rus/docs/Z1100000407

10. Qazaxıstan Respublikasının Elm və Təhsil Nazirliyi. “Ali təhsil müəssisələrinin təsnifat meyarlarının təsdiq edilməsi haqqında” Qanun 2015.
https://adilet.zan.kz/kaz/docs/V1500012285/history

11. Бекишев К. Инновации в системе образования Республики Казахстан. 2019.
http://www. chem. msu. su/rus/books/2013-/science-education-2013/036. pdf

12. Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyi (2023). “Nazarbayev Universiteti” müstəqil təhsil təşkilatına tədqiqat universiteti statusunun verilməsi və onun İnkişaf Proqramının təsdiq edilməsi haqqında Qanun (2016-2020-ci illər).
https://adilet.zan.kz/kaz/docs/P1500001051

13. Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyi (2023). “Nazarbayev Universiteti” müs-

təqil təhsil təşkilatının 2021-2025-ci illər üçün Tədqiqat Universitetinin İnkişafı Proqramının təsdiq edilməsi haqqında Qanun.
https://adilet.zan.kz/kaz/docs/P2100000923

**Kh.Huseynzade**

## Kazakhstan model in the development of research universities and the potential for regional integration

**Abstact**

In modern society, research universities serve as a bridge between science, education, and industry, accelerating economic and social transformations. The article analyzes the organization and development strategies of research universities in Kazakhstan, focusing on the role of state policy, the integration of scientific research with education, the formation of an innovation environment, and opportunities for international cooperation. Based on the analysis, the necessity of establishing research universities in Azerbaijan is emphasized, along with recommendations for building scientific infrastructure, promoting research, expanding public-private partnerships, and aligning governance systems with international standards. Consequently, the development of research universities is regarded as a strategic priority for enhancing the country's innovation potential and competitiveness.

**Х.Гусейнзаде**

## Казахстанская модель развития исследовательских университетов и потенциал региональной интеграции

**Аннотация**

В современном обществе исследовательские университеты выполняют роль моста между наукой, образованием и промышленностью, ускоряя экономические и социальные трансформации. В статье анализируются организация и стратегии развития исследовательских университетов в Казахстане, особое внимание уделяется роли государственной политики, интеграции научных исследований с образованием, формированию инновационной среды и возможностям международного сотрудничества. На основе проведённого анализа подчёркивается необходимость создания исследовательских университетов в Азербайджане, а также предлагаются рекомендации по развитию научной инфраструктуры, стимулированию исследований, расширению государственно-частного партнёрства и приведению систем управления в соответствие с международными стандартами. В итоге развитие исследовательских университетов рассматривается как стратегический приоритет для повышения инновационного потенциала и конкурентоспособности страны.